| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Konstitusiya qanunları |
| **QƏBUL EDİLDİYİ TARİX** | 02.11.2018 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1332-VKQ |
| **ADI** | Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 16-11-2018, Nəşr nömrəsi: 258) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 16.11.2018 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 010.030.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 11201811021332 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 15.11.2018 |

## Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri" təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 noyabr 2018-ci il
1332-VKQ

Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr
tarixli 1332-VKQ nömrəli Konstitusiya Qanunu ilə
təsdiq edilmişdir

## Azərbaycan Respublikası Dövlət Gerbinin

## T Ə S V İ R İ

**Maddə 1. Ümumi təsvir**

1.1. Azərbaycan Respublikasının Dövlət Gerbi iki palıd budağından və iki sünbüldən ibarət qövsvarı çələngin üzərində yerləşən şərq qalxanı şəklindədir.

1.2. Qalxanın üzərində Azərbaycan Respublikası Dövlət Bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri (8 ədəd) və palıd qozaları (5 ədəd) qızılı rəngdədir.

**Maddə 2. Rəngli, rəngsiz və sxematik təsvir**

2.1. Azərbaycan Respublikasının Dövlət Gerbi, ölçüsündən asılı olmayaraq, onun bu Təsvirə əlavə edilən rəngli, rəngsiz və sxematik təsvirlərinə uyğun gəlməlidir.

2.2. Azərbaycan Respublikası Dövlət Gerbinin sənaye üsulu ilə hazırlanması və rəngli təsvirinin çapı zamanı alovun qırmızı rənginin "Panton" rənglər kataloqunun Pantone Red 032C rəng koduna, palıd budaqlarının yaşıl rənginin Pantone 7729C rəng koduna, sünbüllərin sarı rənginin Pantone 7548C rəng koduna, qalxanın və ulduzun sağanaqlarının, qalxanın düymələrinin və palıd qozalarının qızılı rənginin Pantone 111C rəng koduna uyğunluğu təmin edilir.

"Azərbaycan Respublikası
Dövlət Gerbinin təsviri"nə
ƏLAVƏ

## Azərbaycan Respublikası Dövlət Gerbinin rəngli təsviri



"Azərbaycan Respublikası
Dövlət Gerbinin təsviri"nə
ƏLAVƏ

## Azərbaycan Respublikası Dövlət Gerbinin rəngsiz təsviri



"Azərbaycan Respublikası
Dövlət Gerbinin təsviri"nə
ƏLAVƏ

# Azərbaycan Respublikası Dövlət Gerbinin sxematik təsviri




| Azərbaycan Respublikası Dövlət Gerbinin ölçülərinin nisbəti | |
|---|---|
| D: Qalxanın dairəsinin diametri | 1 D |
| A: Gerbin ümumi uzunluğu | 1,190 D |
| B: Gerbin ümumi eni | 1,078 D |
| C: Palıd-sünbül çələnginin eni | 0,562 D |
| $D_1$: Ulduzun xarici çevrəsinin diametri | 0,928 D |
| $D_2$: Ulduzun daxili çevrəsinin diametri | 0,453 D |
| $D_3$:Qalxanın düymələrinin diametri | 0,038 D |
| $E_1$: Bayrağın mavi rəngini əks etdirən zolağın eni | 0,072 D |
| $E_2$: Bayrağın qırmızı rəngini əks etdirən zolağın eni | 0,072 D |
| $E_3$: Bayrağın yaşıl rəngini əks etdirən zolağın eni | 0,072 D |
| F: Alovun uzunluğu | 0,365 D |
| G: Alovun eni | 0,230 D |
| H: Səkkizguşəli ulduzun kontur xəttinin qalınlığı | 0,017 D |
| J: Qalxanın xarici kontur xəttinin qalınlığı | 0,036 D |